# Ağdamda Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupun iclası keçirilib

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupunun Ağdam şəhərində iclası keçirilib.

















AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri, İşçi qrupun rəhbəri Vüqar Süleymanov, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin baş məsləhətçisi, Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzi Katibliyinin rəhbərinin müavini Sultan Hacıyev, İşçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri və Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəliyinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəliyinin rəsmiləri iştirak ediblər.

İşçi qrupun iclasında dövlət və özəl strukturlar tərəfindən daxil olmuş müraciətlərə və hökumətin müəyyən etdiyi prioritetlərə uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə müvafiq layihələrin icrası məqsədilə nəzərdə tutulmuş ərazilərin mina və partlayıcı qurğulardan təmizlənməsi fəaliyyəti barədə müzakirələr aparılıb.

İclasda açılış nitqi ilə çıxış edən Vüqar Süleymanov İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunan dövlət və özəl qurumları tərəfindən 68 min hektar ərazinin mina və partlamamış hərbi sursatlardan təmizləndiyini, 82 mindən artıq partlayıcı qurğunun aşkar edilərək zərərsizləşdirildiyini bildirib. Eyni zamanda Böyük qayıdış proqramı çərçivəsində Ağdam üzrə strateji əhəmiyyətə malik layihələrin minalardan təmizlənməsi və əlaqəli şəkildə icra edilən bərpa-quruculuq istiqamətində görülən əhəmiyyətli işlər barədə məlumat verib.

İclasda çıxış edən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev ölkə Prezidentinin azad edilmiş ərazilərin yenidən qurulması və dayanıqlı məskunlaşmanın təmin edilməsi istiqamətindəki tapşırıqlarına uyğun olaraq Qarabağda aparılan minatəmizləmə fəaliyyəti və sosial-iqtisadi layihələrdən danışıb.

Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin baş məsləhətçisi Sultan Hacıyev Əlaqələndirmə Qərargahının ötən dövr ərzindəki fəaliyyətindən, işğaldan azad edilmiş ərazilərdə aparılan minatəmizləmə əməliyyatlarından sonra həyata keçirilən bərpa, quruculuq işlərindən, habelə 2023-cü ildə qarşıda duran vəzifə və öhdəliklərdən söz açıb.

Sonra işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən müxtəlif özəl və dövlət qurumunun əməkdaşları üçün keçirilən təlimlərin əhəmiyyəti, minatəmizləmə sahəsində mövcud resursların birgə faydalı istismarına dair müzakirələr aparılıb.

Ağdam rayonunda keçirilən tədbir çərçivəsində minatəmizləmə fəaliyyətinə cəlb olunan qurumların 2023-cü il üzrə hökumət tərəfindən müəyyən edilmiş ərazilərdə icra etdiyi təmizləmə sahələrinə səfərlər edilib, layihələrin icrasına baxış keçirilib.

Azərbaycan.- 2023.-1 mart.- S.6.